*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-1 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Siyasi partiyaların bloklarının qeydə alınması qaydaları haqqında

# T Ə L İ M A T

Bu Təlimat seçkilərdə (referendumda) (bundan sonra – seçkilər) iştirak etmək üçün siyasi partiyaların bloklarının yaradılması qaydalarını müəyyən edir.

## 1. Siyasi partiyalar blokunun qeydə alınması üçün təqdim edilməli olan sənədlər

1.1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 50-ci maddəsinə müvafiq olaraq siyasi partiyalar blokunun qeydə alınması üçün onun səlahiyyətli nümayəndəsi aşağıda göstərilən sənədləri Seçki Məcəlləsinə uyğun formada Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etməlidir:

1.1.1. bloka daxil olan siyasi partiyaların nizamnamələrinin notariat qaydasında təsdiq edilmiş surətləri;

1.1.2. bloka daxil olan siyasi partiyaların bloka daxil olmaq barədə sazişi;

1.1.3. siyasi partiyaların bloka daxil olmaq haqqında qərarları;

1.1.4. blokun yaradılması haqqında siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış və həmin partiyaların möhürləri ilə təsdiqlənmiş birgə qərar;

1.1.5. siyasi partiyalar blokunun tam və qısa adı barədə məlumat (*siyasi partiyalar blokunun adı bloka daxil olmuş partiyaların nümayəndələrinin birgə iclasında müəyyənləşdirilir, blokun adlandırılmasında həmin bloka daxil olmayan siyasi partiyaların (seçkilərdə iştirak edib-etməməsindən asılı olmayaraq), əvvəllər seçkilərdə iştirak etmiş digər siyasi partiyaların adlarından istifadə edilə bilməz. Əgər yeni qeydə alınmış siyasi partiyalar blokuna əvvəlki seçkilərdə həmin bloku yaratmış siyasi partiyaların yarısından çoxu daxil deyildirsə, yeni yaradılan bloka əvvəlki siyasi partiyalar blokunun adı verilə bilməz. Fiziki şəxsin adından və ya soyadından siyasi partiyalar bloku tərəfindən yalnız həmin şəxsin yazılı razılığı əsasında istifadə edilə bilər*);

1.1.6. səlahiyyətli nümayəndələrin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə bloka daxil olan siyasi partiyaların iclasının (qurultay, konfrans və ya rəhbər orqanının) qərarı və ya siyasi partiyaların nümayəndələrinin birgə iclasının qərarı;

1.1.7. səlahiyyətli nümayəndələrin (Təlimata 1 saylı əlavə), habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin (Təlimata 1 "a" saylı) siyahısı

(*siyasi partiyalar blokunun səlahiyyətli orqanının qərarı ilə yazılı formada xəbərdar etməklə nümayəndənin səlahiyyətinə xitam verilə bilər; bu barədə qəbul edilmiş qərarın surəti Mərkəzi Seçki Komissiyasına göndərilməlidir*);

1.1.8. həmin şəxslərin səlahiyyətli nümayəndə olmağa razılıq verməsi barədə razılıq məktubları (Təlimata 2 və 2 "a" saylı əlavələr).

1.2. Siyasi partiyaların bloku öz emblemini də təsdiq üçün Mərkəzi Seçki Komissiyasına təqdim edə bilər *(siyasi partiyaların bloku, onun tərkibindəki hər hansı siyasi partiyanın qeydə alınmış emblemi, yaxud digər siyasi partiyalar və siyasi partiyalar bloklarının indiki və əvvəlki seçkilərdə istifadə etdikləri emblemlər istisna olmaqla (Seçki Məcəlləsinin 51.2-ci maddəsi nəzərə alınmaqla), istənilən emblemi təqdim edə bilər. Siyasi partiyalar blokunun rəmzləri əqli mülkiyyət hüquqlarını, əmtəə nişanlarına olan hüquqları pozmamalı, Azərbaycan Respublikasının və digər ölkələrin dövlət rəmzlərinə, dini rəmzlərə toxunmamalı, ümumən qəbul edilmiş əxlaq normalarını pozmamalıdır. Siyasi partiyaların bloku beş sözdən çox olmayan adından, habelə emblemindən seçki sənədlərində istifadə edilməsini Mərkəzi Seçki Komissiyası ilə razılaşdırmalıdır).*

## 2. Siyasi partiyalar blokunun qeydə alınması

2.1. Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş sənədlərin qəbul edilməsi barədə yazılı arayış səlahiyyətli nümayəndəyə verilir (Təlimata 3 saylı əlavə).

2.2. Siyasi partiyaların bloku tərəfindən müvafiq sənədlərin Mərkəzi Seçki Komissiyasına təqdim edildiyi gündən ən geci 5 gün müddətində Mərkəzi Seçki Komissiyası həmin blokun qeydiyyatı məsələsini həll etməlidir.

2.3. Siyasi partiyalar blokunun qeydə alınması üçün zəruri olan sənədlər düzgün rəsmiləşdirilmədikdə, tam olmadıqda və ya Seçki Məcəlləsinin tələblərinə uyğun gəlmədikdə Mərkəzi Seçki Komissiyası müvafiq siyasi partiyalar blokunun qeydə alınmasından imtina edilməsi haqqında qərar çıxara bilər.

*Təlimata 1 saylı əlavə*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına

__________________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin**

**S İ Y A H I S I**

| **Sıra sayı** | **Soyadı, adı, atasının adı** | **Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün)** | **Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi** | **Yaşayış yerinin ünvanı** | **Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda-fəaliyyət növü)** | **Telefon №-si** |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

**Qeyd 1:** *Bu siyahı Mərkəzi Seçki Komissiyasına və müvafiq dairə seçki komissiyalarına təqdim edilir.*

**Qeyd 2:** *Bu əlavə "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimata 2 saylı əlavənin forma və məzmununa uyğun hazırlanmışdır.*

*Təlimata 1 ”a” saylı əlavə*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına

____________________________________________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda-fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ____________ ______________________

*(imza)* *(inisialı və soyadı)*

**Qeyd 1:** *Bu siyahıya maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq ərizələri və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*Bu siyahı yalnız Mərkəzi Seçki Komissiyasına təqdim edilir.*

**Qeyd 2:** *Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimata 2”a” saylı əlavənin forma və məzmununa uyğun hazırlanmışdır.*

*Təlimata 2 saylı əlavə*

______________________________________
*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən
______________________________________
*(seçkilərin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən səlahiyyətli nümayəndə təyin edilməsi nəzərdə tutulmuş

______________________________________
*(soyadı, adı, atasının adı)*

## R A Z I L I Q  M Ə K T U B U

Mən, ________________________________________________________
*(soyadı, adı, atasının adı)*
Azərbaycan Respublikasında keçirilən ____________________________________
*(seçkilərin (referendumun) adı)*
(namizədi) qeydə alınmış ______________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

tərəfindən səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, “___” ____________________ _____ ildə anadan olmuşam,
*(doğum tarixi)*

______________________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*

______________________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

______________________________________________________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

________________________ _________________________________________________
*(imza)* *(səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

“_____” ________________ 20 il
(ərizənin verilmə tarixi)

**Qeyd 1:** *1. Ərizəyə 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*

**Qeyd 2:** *Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimata 1 saylı əlavənin forma və məzmununa uyğun hazırlanmışdır.*

*Təlimata 2 ”a” saylı əlavə*

________________________________________
*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən
________________________________________
*(seçkilərin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməsi nəzərdə tutulmuş ____________________________
*(soyadı, adı, atasının adı)*

**R A Z I L I Q   M Ə K T U B U**

Mən, ________________________________________________________
*(soyadı, adı, atasının adı)*
Azərbaycan Respublikasında keçirilən ____________________________________
*(seçkilərin (referendumun) adı)*
(namizədi) qeydə alınmış ______________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*
tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, “____” _____________________ ____ ildə anadan olmuşam,
*(doğum tarixi)*

_____________________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*
_____________________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*
_____________________________________________________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

______________________     __________________________________________
*(imza)*     *(inisialı və soyadı)*

“_____” _______________ 20   il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Ərizəyə 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*

**Qeyd 2:** *Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimata 1”a” saylı əlavənin forma və məzmununa uyğun hazırlanmışdır.*

*Təlimata 3 saylı əlavə*

# A R A Y I Ş

Bakı şəhəri                                   "____" ____________20___ il

Saat ________

Verilir ________________________________________________________

*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*

Ondan ötrü ki, o, həqiqətən __________________________________________

*(siyasi partiyalar blokunun tam adı)*

siyasi partiyalar blokunun qeydə alınmasının təsdiq edilməsi üçün aşağıdakı sənədləri _____ Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsinin müdiri** __________ __________________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y.

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ __________________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

**Sənədləri təqdim edən şəxs** __________ __________________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Sənədləri Mərkəzi Seçki Komissiyasına siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi təqdim etməlidir.*
*2. Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi Mərkəzi Seçki Komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*